**Əliyev N.K.**

# Vergiləri ödəməkdən yayınma əməllərinə görə cinayət məsuliyyəti: müasir yanaşma

Vergilər sinifli quruluşun təşəkkül tapdığı ilk vaxtlardan siyasi-hüquqi sistemin, o cümlədən dövlətlərin maliyyə ehtiyatlarının əsas mənbəyi olmuşdur. Bu baxımdan vergi və vergitutma mövzusu tarixən ictimai həyatın və hakimiyyətin başlıca məsələlərindən biri sayılmışdır. Adam Smit hesab edirdi ki, vergilər onu ödəyənlərin köləlik deyil, azadlıq rəmzidir. Lakin bəşəriyyətin tarixi inkişafı ilə sübuta yetirildi ki, vergi sistemi sivil cəmiyyətlərdə və dövlətlərdə, ilk növbədə və başlıca olaraq, iqtisadi və sosial siyasətin məqsədləri üçün istifadə edilir. Bu baxımdan vergi və vergitutma həmçinin iqtisadi-sosial mədəniyyətin mühüm tərkib elementləri kimi çıxış edir.

Dövlət büdcəsinin əsas təminat mənbəyi olan vergitutma ölkədə həyata keçirilən vergi siyasətinin məzmunundan bilavasitə asılıdır. Vergi siyasəti ölkənin və cəmiyyətin, habelə ayrı-ayrı sosial qrupların maliyyə vəsaitlərinə olan ehtiyacının ödənilməsi, maliyyə ehtiyatlarının yenidən bölüşdürülməsi hesabına dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi məqsədilə elmi və təcrübi cəhətdən hazırlanmış fəaliyyətin ümumi istiqaməti kimi çıxış edir. Bu siyasət müvafiq qanunvericilik aktlarında normativləşdirilməklə, adətən, dövlətin ümumi inkişaf, iqtisadi, təhlükəsizlik və s. perspektiv xarakterli, konseptual məzmunlu proqram sənədlərində öz əksini tapır. Dövlətimizin müasir vergi siyasəti birbaşa və dolayı vergitutmada harmoniyanın təmin edilməsi, korporotiv vergitutma sisteminin təkmilləşməsi, vergitutma bazasının genişləndirilməsi, vergi dərəcələrinin aşağı salınması, vergi ödəyiciləri arasında vergitutma rejiminin bərabərləşdirilməsi, vergi orqanı və vergi ödəyicisi arasında qarşılıqlı inam atmosferinin yaradılması, vergi öhdəliklərinin könüllü icrası, vergi hüquq pozuntusu hallarına görə məsuliyyətin həllinə diferensial yanaşmanın tətbiq edilməsi, vergini ödəməkdən yayınma halları ilə mübarizədə səmərəliliyə nail olunması  və s. bu kimi əlamətlər ilə xarakterizə olunur.

Son illərdə ölkəmizdə cəza siyasətinin humanistləşdirilməsi, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza tədbirlərinin tətbiqi, cinayətlərin dekriminallaşdırılması istiqamətində həyata keçirilən islahatlar çərçivəsində cinayət qanunvericiliyində, xüsusən, iqtisadi fəaliyyət sferasında törədilən ictimai təhlükəli əməllərə görə məsuliyyət nəzərdə tutan cinayət-hüquqi normalarda sanksiyaların yumşaldılması və s. üzrə mühüm dəyişikliklər edilmişdir. Bu dəyişikliklər həmçinin ölkəmizin iqtisadi siyasətinin məzmununa uyğundur. Azərbaycan Respublikasının İqtisadiyyat naziri cənab M.Cabbarovun 2018-ci ilin 13 fevral tarixdə Bakı şəhərində "Vergilər. Şəffaflıq. İnkişaf" mövzusunda keçirilmiş konfransda dediyi aşağıdakı sözlər bu baxımdan diqqətəlayiqdir: "Vicdanlı vergi ödəyicisi ilə qeyri-vicdanlı davranan ödəyici arasında fərq qoyulmalıdır. Vicdanlı vergi ödəyicisinin səhv etməyə haqqı var. Vergi orqanının vəzifəsi bu səhvin baş vermə anını gözləmək deyil, bütün vasitələrlə onun qarşısını almaqdır."

Eyni zamanda nəzərə almaq lazımdır ki, vergidən yayınma əməlləri nəticəsində dövlətlər nəhəng məbləğdə zərərə məruz qalır ki, bu da həmin növ əməllər ilə mübarizənin gücləndirilməsini, bu sahədə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi mövzusunu aktuallaşdırır. Vergiləri ödəməkdən yayınma cinayətləri predikat cinayətkarlığın təzahürü olduğundan, əsasən, digər iqtisadi cinayətlər ilə birlikdə törədilir. Maliyyə cinayətlərində, bir qayda olaraq, iştirakçılar arasında əlbirliyin olması bu əməllərin ifşasına çətinliklər yaradır. Müasir elmi-texnki və rəqəmsallaşma şəraitində bu növ əməllər ilə səmərəli mübarizənin aparılmasından ötrü ayrı-ayrı ölkələrin hüquq mühafizə orqanları arasında sərbəst informasiya mübadiləsinin mövcud olması zəruri şərtlərdən biridir. Eyni zamanda, vergilərin ödənilməməsi əməllərinə görə məsuliyyətin həllində tamamilə yeni bir yanaşmanın sərgilənməsinə ehtiyac vardır. Vergilərin qəsdən ödənilməməsi və ya qəsdən ödənilməməsinin sübuta yetirilməsi hallarına vergi qanunvericiliyinin tələblərinin formal pozuntusu kimi baxılması və bu növ işlərin inzibati məsuliyyət qaydasında həll edilməsi məqsədəmüvafiq sayılır.